## № 1

# DAĞLAR SULTANI

Söz : Abdulla Şaiq
( 1881 - 1959 )

Mus : Üzeyir Hacıbəyli
( 1885 - 1948 )

Maestoso, tempo di marcia ♩ = 112











**Solo:** Dan yeri açınca xoruzlar banlar,
Sis dumanlı, dərə, bayır, ormanlar,
Sürüsünü yayar dağa çobanlar,
Təbiətin zövqünü onlar anlar.

Nəqarət

**Xor:** Bu yerlərin aslanıdır çobanlar,
Həm izzəti, həm şənidir çobanlar.

* * *

**Solo:** Gözəl olur bu yerlərin səhəri,
Dağ başından doğar altunsaç pəri.
Çəmənlərin qırmızı don dilbəri,
Şəfəqilə boyar, bəzər hər yeri.

Nəqarət

**Xor:** Bu yerlərin aslanıdır çobanlar,
Həm izzəti, həm şənidir çobanlar.

* * *

**Solo:** Gözəl olur bizim elin yaylağı,
Gül - çiçəkdir bu yerlərin otlağı,
Bir cənnətə bənzəyir hər bucağı,
Durna gözü kimi vardır bulağı.

Nəqarət

**Xor:** Bu yerlərin aslanıdır çobanlar,
Həm izzəti, həm şənidir çobanlar.